ŞƏFFAFLIQ
AZƏRBAYCAN

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

**"Şəffaflıq Azərbaycan" Quba və Şəki rayonlarında bir sıra seminarlar keçirib**

**31 oktyabr, 2008 –** "Transparency İnternational" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Quba və Şəki mərkəzləri həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində oktyabr ayının son həftəsi ərzində Şəki rayonunun Əliyar, Aydınbulaq, Aşağı Daşağıl və Şirinbulaq və Quba rayonunun Gərəy və Uzunmeşə kəndlərinin əhalisi üçün təlimlər keçiriblər. Həmçinin təlimlər Bakı Sənaye Pedaqoji Texnikumunun Quba filialının müəllim kontinqenti və Dövlət Sosial Müdafiə Fondunun Quba rayon şöbəsinin əməkdaşları üçün də keçirilmişdir.

İctimaiyyət arasında maarifləndirmə, işgüzar etika və korrupsiyanın forma və səbəbləri ilə bağlı tədqiqatların aparılması ilə məşğul olan aparıcı Beynəlxalq QHT sayılan "Şəffaflıq Azərbaycan" təşkilatının nümayəndələri mobil seminar xarakteri daşıyan təlimlər zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, habelə, "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın" icrası üzrə tədbirlər planı, təşkilatının fəaliyyət istiqamətləri və həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırıblar və şikayəti olan vətəndaşlara yerində pulsuz hüquqi yardım göstəriblər.

Keçirilmiş təlimlərdə daha çox Azərenerji, Notariat, Məhkəmə, Polis, Bələdiyyə, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti**,** Təhsil və Sosial Fond sahələrində müşahidə olunan korrupsiya faktları ilə bağlı şikayətlər qeydə alınırdı.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və Böyük Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu"nun maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*